# Şəhid ailələri və müharibə əlillərinə, digər həssas qruplardan olanlara daha 50 mənzil verilib



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Xocasən qəsəbəsində şəhid ailələri, müharibə əlilləri, gözdən əlilliyi olan şəxslər və dövlət uşaq müəssisələrinin məzunlarına daha 50 mənzil təqdim edilib.

Mənzillərin sənədlərini əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev təqdim edib.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə çıxış edən H.Abdullayev oktyabrın 25-nin Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun ötən il Vətən müharibəsində Qubadlını işğaldan azad etdiyi gün olduğunu deyib. Qeyd edib ki, 30 ilə yaxın Ermənistanın işğalı altında qalan Qubadlı bu gün azaddır və azad edilmiş bütün yurd yerlərimiz kimi, orada da üçrəngli bayrağımız dalğalanır.

Nazir müavini möhtəşəm Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərlə bağlı genişmiqyaslı dəstək tədbirlərinin həyata keçirildiyini bildirib. Diqqətə çatdırıb ki, artıq 31 min şəxs bu dəstək tədbirləri ilə əhatə olunub. Zəfəri bizə yaşadan qəhrəman şəhidlərimizin ailələrinə və qazilərimizə növbəti mənzillərin təqdim edilməsi dövlətimizin həm də sosial sahədə güclü, uğurlu siyasətini göstərir.

H.Abdullayev ötən dövrdə 11 min şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi ev verildiyini, dövlət başçısının sərəncamı ilə 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi evin bu kateqoriyalardan olan şəxslərə verilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb. Bildirib ki, 2021-ci il üzrə 3 min mənzil və fərdi evin verilməsi işləri davam etdirilir və onlardan artıq 1850 mənzil verilib. Vətən müharibəsi qəhrəmanlarının, onlardan şəhid olanların ailələrinin, həmçinin gözdən əlilliyi olan şəxslərin, dövlət uşaq müəssisələri məzunlarının da mənzillə təminatı işləri davam etdirilir.

Yeni mənzillərlə təmin edilənlər Prezident İlham Əliyevin xüsusi qayğısını hər zaman hiss etdiklərini vurğulayıblar. Onlar bu gün yeni mənzillərlə təmin edildiklərinə görə dövlət başçısına dərin minnətdarlıqlarını ifadə ediblər.

Azərbaycan.- 2021.- 26 oktyabr.- S.10.